# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN OLİMPİYA HƏRƏKATI VƏ İDMANLA BAĞLI FƏRMAN VƏ SƏRƏNCAMLARI

"Bədən tərbiyəsi və idman haqqında Azərbaycan Respublikasının Qanunun tədbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Qanunu tədbiq edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİN FƏRMANI

"Bədən tərbiyəsi və idman haqqında Azərbaycan Respublikasının Qanunun tədbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası 2010-cu il 5 mart tarixli 971-xxxx nömrəli Qanunun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tədbiq edilməsi təmin etmək məqsədi ilə qərara alıram:

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, üç ay müddətində:

**1.1.** qüvvədə olan qanunvericilik aktlarına "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanunun tədbiq ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərin hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.2.**Azərbaycan Respublikasının Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.3.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 68-6-cı, 68-7-ci, 68-8-ci və 68-9-cu maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan dövlət orqanları barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.4**. öz səlahiyyətləri daxilində" Bədən tərbiyəsi və İdman haqqında" Azərbaycan Respublikasının Qanunuun tədbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanunundan irəli gələn məsələləri həll etsin.

**2.**Müəyyən edilsin ki, "Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın əsasları haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinin üçüncü hissəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərinin Azərbaycan Respublikasının Müdafiyə Nazirliyi həyata keçirsin.

**İlham Əliyev**

**“Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan Respublikasının Qanununa əlavələr edilməsi barədə” Azərbaycan Respublikasının 2010-cu il 31 may tarixli 1019-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı**

“Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan Respublikasının Qanununa əlavələr edilməsi barədə” Azərbaycan Respublikasının 2010-cu il 31 may tarixli 1019-IIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

1.1. qüvvədə olan qanunvericilik aktlarının “Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan Respublikasının Qanununa əlavələr edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. həmin Qanunun 53-1.2-ci maddəsində nəzərdə tutulmuş idman mərc oyunlarının həyata keçirilməsi məqsədilə hüquqi şəxsin akkreditasiya olunması qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanunun 53-1.3-cü maddəsində nəzərdə tutulmuş idman mərc oyunlarının təşkili və keçirilməsi qaydalarını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. həmin Qanunun 53-1.4-cü maddəsində nəzərdə tutulmuş idman mərc oyunlarının keçirilməsi üçün iştirakçılar tərəfindən ödənilən vəsaitlərin bədən tərbiyəsi və idmanın inkişafına yönəldilən hissəsini müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.6. öz səlahiyyətləri daxilində “Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan Respublikasının Qanununa əlavələr edilməsi barədə” Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

2.1. “Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan Respublikası Qanununun 53-1.3-cü və 53-1.4-cü maddələrində nəzərdə tutulmuş “müvafiq icra

hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

2.2. həmin Qanunun 53-1.2-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi həyata keçirir;

2.3. həmin Qanunun 53-1.5-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi həyata keçirir.

**İlham Əliyev**

**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 10 iyun 2010-cu il**

**"Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının 2010-cu il 31 may tarixli 1019-IIIQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarına əlavələr edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı**

"Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının 2010-cu il 31 may tarixli 1019-IIIQD nömrəli Qanununa uyğun olaraq qərara alıram:

1. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 392 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, №4, maddə 324, №10, maddə 849; 2008-ci il, №7, maddə 612, №8, maddə 715, №11, maddə 970; 2009-cu il, №12, maddə 983; 2010-cu il, №2, maddə 83) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 8.37-1-ci bənd əlavə edilsin:

"8.37-1. idman mərc oyunlarını həyata keçirən hüquqi şəxsləri qanunvericiliklə müəyyən edilmiş qaydada akkreditə etmək;".

2. Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 mart tarixli 70 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, №3, maddə 162, №7, maddə 533, №12, maddə 983; 2010-cu il, №2, maddə 80) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 8.2.10-2-ci bənd əlavə edilsin:

“8.2.10-2. idman mərc oyunlarının təşkili və keçirilməsinə nəzarət etmək;”.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 1 oktyabr 2010-cu il.**

## O.İ.Musayevə Azərbaycan Respublikası prezidentinin xüsusi olimpiya təqaüdünün verilməsi haqqında AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Prezidentinin “Azərbaycanın olimpiya çempionları üçün Azərbaycan Respublikası Prezidentinin xüsusi olimpiya təqaüdlərinin təsis edilməsi haqqında” 10 oktyabr 2002-ci il tarixli Fərmanına uyğun olaraq qərara alıram:

1. XIII Pekin Yay Paralimpiya Oyunları çempionu Oloxan İsayeviç Musayevə Azərbaycan Respublikası Prezidentinin xüsusi olimpiya təqaüdü verilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 4 mart 2009-cu il.

## Azərbaycan Respublikası idmançılarının və idman mütəxəssislərinin təltif edilməsi haqqında AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan idmanının inkişafındakı xidmətlərinə və dövlət qulluğunda səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

“Şöhrət” ordeni ilə
Məmmədov Ceyhun Məhəmməd oğlu

“Tərəqqi” medalı ilə
Aşurlu İsrafil Əli oğlu

Babayev Faiq Abuzər oğlu
Mədətov İlham İsa oğlu

"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə
Əliyev Ərçə Fərrux oğlu
Əliyev Ramiz Salman oğlu
Həsənov Mütalib Mirzə oğlu
Quliyev Asif Yusif oğlu
Rzayev Əfqan Savalan oğlu
Rzayev Rafiq Əli-Heydər oğlu

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 4 mart 2009-cu il.

"2009-2014-cü illərdə Azərbaycanda şahmatın inkişaf etdirilməsi dövlət proqramı"nın təsdiq edilməsi barədə
AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
SƏRƏNCAMI

Azərbaycan Respublikasında şahmat sahəsində mövcud potensialı və əldə olunmuş yüksək nailiyyətləri nəzərə alaraq, şahmata dövlət qayğısının daha da artırılması, o cümlədən onun maddi-texniki təminatının möhkəmləndirilməsi, elmi-metodiki və normativ hüquqi bazasının təkmilləsdirilməsi məqsədi ilə qərara alıram:

1. "2009-2014-cü illərdə Azərbaycanda şahmatın inkişaf etdirilməsi Dövlət Proqramı" təsdiq edilsin (əlavə olunur).

2. Bu Sərəncamın 1-ci bəndində qeyd olunan Dövlət Proqramının həyata keçirilməsi üzrə tədbirlərin əlaqələndiricisi Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi müəyyən edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 5 may 2009-cu il.

**Mingəçevir şəhərində "Kür" Olimpiya Tədris İdman Mərkəzinin yenidən qurulması ilə əlaqədar əlavə tədbirlər haqqında**
**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı proqramlarının icrası çərçivəsində ölkəmizin şəhər və rayonlarında bədən tərbiyəsi və idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində tədbirlər uğurla həyata keçirilir.

Mingəçevir şəhərində "Kür" Olimpiya Tədris İdman Mərkəzinin yenidən qurulması ilə əlaqədar işlərin sürətləndirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Mingəçevir şəhərində "Kür" Olimpiya Tədris İdman Mərkəzinin yenidən qurulması işlərinin sürətləndirilməsi üçün Azərbaycan Respublikasının 2009-cu ilin dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə 3,0 (üç) milyon manat məbləğində vəsait ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci bəndində nəzərdə tutulmuş vəsaitin maliyyələşdirilməsini müəyyən olunmuş qaydada həyata keçirsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 3 noyabr 2009-cu il.

**V.C.Əliyevə**
**Azərbaycan Respublikası Prezidentinin**
**fərdi təqaüdünün verilməsi haqqında**
**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN**
**SƏRƏNCAMI**

«Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq qərara alıram:

1. Azərbaycanda bədən tərbiyəsi və idmanın inkişafında xidmətlərinə görə Vaqif Cəfər oğlu Əliyevə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 22 dekabr 2009-cu il.**

**Azərbaycan Respublikasının idman mütəxəssislərinə**
**fəxri adların verilməsi haqqında**
**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN**
**SƏRƏNCAMI**

Azərbaycanda bədən tərbiyəsi və idmanın inkişafında, tədrisi və təbliğində xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

"Əməkdar Bədən Tərbiyəsi və İdman Xadimi"

Allahverdi Yaşar Bəxtiyar oğlu
Hətəmov Əhməd Süleyman oğlu
Hüseynov Mirzə İbrahim oğlu
Xudiyev Asim Xəlil oğlu
İzuf Vladislav Georgiyeviç
Quliyev Gülbaba Balasoltan oğlu
Məmmədov İbrahim Bayram oğlu
Yelizarov Matvey Safailoviç
Zöhrabov Rauf Ramazan oğlu

"Əməkdar Müəllim"

Babayev Zəfər Abıgül oğlu
Əsgərov İsgəndər İslam oğlu

“Əməkdar Jurnalist”
Fərəcov Əli Yusif oğlu
Mehdiyev Qabil Sabir oğlu

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 22 dekabr 2009-cu il.

## İ.A.Ponomaryovun “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif edilməsi haqqında AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan idmanının inkişafında xidmətlərinə görə İqor Anatolyeviç Ponomaryov “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 23 fevral 2010-cu il.**

## Azərbaycan Respublikası idmançılarının və idman mütəxəssislərinin təltif edilməsi haqqında AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

**Azərbaycan Respublikasında idmanın inkişafında xidmətlərinə və dövlət qulluğunda səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:**

**“Tərəqqi” medalı ilə**
Əhmədli Sona Yadulla qızı
Sultanzadə Məhərrəm Elxan oğlu

**“Dövlət qulluğunda fərqlənməyə görə” medalı ilə**
Abbasov Elçin Əzizəli oğlu
Abdullayev Elbrus Dilənçi oğlu
Bayramov Əlövsət Bayram oğlu
Əmirəliyev Əsgər Akif oğlu
Xasıyev Nüvər Həsən oğlu

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 2 mart 2010-cu il.**

**F.Z.Həsənovun "Azərbaycan Respublikası Prezidentinin Fəxri diplomu" ilə təltif edilməsi haqqında AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

Azərbaycanda şahmatın inkişafında xidmətlərinə görə Faiq Zülfüqar oğlu Həsənov "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 12 aprel 2010-cu il**

**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının 80 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

2010-cu ilin noyabr ayında Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının yaradılmasının 80 illiyi tamam olur.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası fəaliyyətə başladığı vaxtdan etibarən ölkəmizin idman həyatına layiqli töhfələr vermişdir. Akademiyanın yetirmələri Olimpiya Oyunlarında, dünya və Avropa çempionatlarında böyük nailiyyətlər qazanaraq ölkəmizi layiqincə təmsil etmişlər. Respublikamızda bədən tərbiyəsi və idman sahəsinin inkişaf etdirilməsi üçün kadrların hazırlanmasında mühüm xidmətlərini nəzərə alaraq, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının 80 illik yubileyinin qeyd olunmasını təmin etmək məqsədi ilə

**QƏRARA ALIRAM:**

1. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə, Milli Olimpiya Komitəsinin təkliflərini nəzərə almaqla, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının 80 illiyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 3 may 2010-cu il.**

**XXX Yay Olimpiya Oyunlarına hazırlıq haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Müstəqil Azərbaycan Respublikasında Olimpiya hərəkatı ildən-ilə geniş vüsət alır. Ölkəmizin idmançılarının 2008-ci il Pekin Olimpiadasında 1 qızıl, 2 gümüş və 4 bürünc medal əldə edərək böyük nailiyyət qazanması bunun parlaq təcəssümüdür.

Böyük Britaniyanın London şəhərində 2012-ci ildə keçiriləcək növbəti XXX Yay Olimpiya Oyunlarına Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, həmçinin müvafiq idman federasiyaları tərəfindən hazırlıq işləri aparılır. Müxtəlif irimiqyaslı yarışlarda idmançılarımızın son dövrlərdəki qələbələri və yeni gənc idmançılar nəslinin aşkar olunan potensial imkanları bu Olimpiya Oyunlarında yüksək nəticələr göstərilərək, əvvəlki mövqelərin daha da yaxşılaşdırılacağına inam yaradır.

Azərbaycanın milli olimpiya komandasının 2012-ci ildə London şəhərində keçiriləcək XXX Yay Olimpiya Oyunlarına mütəşəkkil hazırlanması, bu mərhələdə onların rəsmi beynəlxalq yarışlara qatılması, lisenziyaların qazanılması və idmançıların London Olimpiadasında iştirakının lazımi səviyyədə təmin olunması məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Gənclər və İdman Nazirliyinin və Milli Olimpiya Komitəsinin təqdim etdiyi xüsusi proqramlara əsasən milli yığma komandaların XXX Yay Olimpiya Oyunlarına hazırlığı mərhələsində təlim-məşq toplanışlarının keçirilməsi, idmançıların rəsmi beynəlxalq yarışlarda iştirakı, ölkədə lisenziya yarışlarının təşkili, Azərbaycan nümayəndə heyətinin Olimpiya Oyunlarında iştirakı və digər tədbirlərin həyata keçirilməsi ilə bağlı zəruri maliyyə vəsaitinin ayrılmasını təmin etsin;

1.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham Əliyev**

**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 22 iyun 2010-cu il.**

**Yeniyetmələrin I Olimpiya Oyunlarında Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün ən yüksək nəticələrə görə mükafatrların müəyyən edilməsi haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN**

**SƏRƏNCAMI**

Sinqapur şəhərində keçirilən Yeniyetmələrin I Olimpiya Oyunlarında ən yüksək nəticələr göstərən Azərbaycan Respublisanın idmançıları və onların məşqçilərini mükafatlandırmaq məqsədi ilə qərara alıram:

1.Yeniyetmələrin I Olimpiya Oyunlarında ən yüksək nəticələrə görə Azərbaycan Respublikasının idmançıları və onların məşqçilərinə ayrılan mükafatların məbləği aşağıdakı qaydada müəyyən edilsin: - birinci yeri tutan hər bir idmançıya 50 min manat, onun məşqçisinə isə 25 min manat; - ikinci yeri tutanhər bir idmançıya 30 min manat, onun məşqçisinə isə 15 min manat.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 avqust 2010-cu il

**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası əməkdaşlarının təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

**Azərbaycanda bədən tərbiyəsi və idman sahəsində kadr hazırlığındakı xidmətlərinə görə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının aşağıdakı əməkdaşları təltif edilsinlər:**

**“Şöhrət” ordeni ilə**

Abdul-Qədirov İsmayıl Qafar oğlu

**“Tərəqqi” medalı ilə**

Bağırov Cavanşir Ağabəy oğlu
Ələkpərov Həmid Yusif oğlu
Əbdürəhmanov Şamil Hətəm oğlu
Hüseynov Firat Alışan oğlu
Qaibov Rafiq Hüseyn oğlu
Qurbanov Oqtay Hüseyn oğlu
Məmmədova Şükufə Ağaşıxalı qızı
Nərimanov Elşad Əhməd oğlu
Sadıqov Sadıq Kazım oğlu
Salmanov Sulduz Baxış oğlu

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 29 noyabr 2010-cu il.**

**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının əməkdaşlarına fəxri adların verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycanda bədən tərbiyəsi və idman sahəsində kadr hazırlığındakı xidmətlərinə görə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının aşağıdakı əməkdaşlarına Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar Bədən Tərbiyəsi və İdman Xadimi"**

Fəttahov Akif Məcid oğlu
Qədəşov Eldar Nəsibulla oğlu
Məmmədyarov Qəhrəman Müslüm oğlu
Yaqubov Camal Calal oğlu

**"Əməkdar Müəllim"**

Abdinova Nataliya İvanovna
Ağalarov Yusif Tağı oğlu
Əbiyev Telman Qulam oğlu
Bağırov Valeri Məmmədoviç
Bağırov Soltan Sədrəddin oğlu
Əliyeva Sara Əli qızı
Hüseynov Şüa Hüseyn oğlu
İsmayılov Tomas Məmməd oğlu
Qurbanov Hənifə Hüseyn oğlu
Məcidov Nazim Böyük-Ağa oğlu
Möhbalıyev Fəhrad Firudin oğlu
Rüstəmov Bəxtiyar Əyyub oğlu
Səlimova Lətifə Həsən qızı
Seyidzadə Əsmər Mirmehdi qızı
Sadıxova Ellaza Rizvan qızı
Salmanova Nazilə Balakişi qızı
Sultanova Sara Oqtay qızı
Yusufxanov Əli Kazım oğlu

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 29 noyabr 2010-cu il.**

**U.M.Qasımova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

**“Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq qərara alıram:**

1. Azərbaycanda bədən tərbiyəsi və idman sahəsində kadr hazırlığındakı xidmətlərinə görə Qasımov Urfət Məmməd oğluna Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 29 noyabr 2010-cu il.**

**Azərbaycanda idmanın inkişafında xidmətləri olan şəxslərə fəxri adların verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

**Azərbaycanda idman sahəsinin inkişaf etdirilməsində xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:**

“Əməkdar Bədən Tərbiyəsi və İdman Xadimi”

Eyyubov Fazil Araş oğlu
Əhmədov Sarı Məhəmməd oğlu
Fərəcov Eldar Məmməd oğlu
Hacıyev Yavər Hacı oğlu
Həsənov Azər Kamal oğlu
Mehdizadə Elçin Eldar oğlu
Məmmədov Aydın Qasım oğlu
Rəhimov Rüstəm Tələt oğlu
Şahniyarov Səməd Nəbi oğlu
Şərifov Hicran İbrahim oğlu

**“Əməkdar Jurnalist”**

Gülməmmədov Tofiq Attıxan oğlu

**“Əməkdar Mühəndis”**

Məmmədov Leysan Novruz oğlu

**İlham Əliyev**

**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 24 dekabr 2010-cu il.**

**2010-cu il noyabrın 25-də Madrid şəhərində imzalanmış "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və İspaniya Krallığının Ali İdman Şurası arasında idman sahəsində əməkdaşlığa dair Memorandum"un təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

1. 2010-cu il noyabrın 25-də Madrid şəhərində imzalanmış "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və İspaniya Krallığının Ali İdman Şurası arasında idman sahəsində əməkdaşlığa dair Memorandum" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə İspaniya Krallığı tərəfini xəbərdar etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 19 yanvar 2011-ci il.**

**Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin əməkdaşlarının "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Dövlət qulluğunda səmərəli fəaliyyət göstərdiklərinə görə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin aşağıdakı əməkdaşları "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilsinlər:

Babayev Fuad Muxtar oğlu
Cəlilova Sənubər Sabir qızı
Hacıyev Fərhad Məcid oğlu

Hacıyeva İndira Niyazi qızı
Hüseynov Elşən Kamal oğlu

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 8 fevral 2011-ci il.**

## Azərbaycanın Paralimpiya idmançılarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycanda paralimpiya hərəkatının inkişafındakı xidmətlərinə görə aşağıdakı şəxslər "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Abdullayev Zahir Abdulla oğlu
İbrahimov Ramin İbrahim oğlu
Məmmədov Tofiq Faiq oğlu
Osmanov Rza Fikrət oğlu
Sərdarov Kərim Əliqulu oğlu
Zayets Vladimir Vladimiroviç

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 16 fevral 2011-ci il.**

## Saatlı rayonunda Olimpiya İdman Kompleksinin və Gənclər Mərkəzinin tikintisi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Gənc nəslin sağlam böyüməsi üçün idmanın kütləviliyinin təmin olunması, gənclərin asudə vaxtının və istirahətinin səmərəli təşkili məqsədi ilə respublikanın bütün bölgələrində genişmiqyaslı məqsədyönlü iş aparılır. İndiyədək 31 Olimpiya İdman Kompleksi tikilmişdir, 8 belə kompleksin inşası isə davam etdirilir. Eyni zamanda bir çox idman qurğuları, stadionlar, gənclər mərkəzləri, mədəniyyət və istirahət ocaqları da yaradılmışdır.
Bu istiqamətdə işlərin davam etdirilməsinin vacibliyini və əhalinin müraciətlərini nəzərə alaraq Saatlı rayonunda Olimpiya İdman kompleksinin və Gənclər Mərkəzinin tikilməsi məqsədi ilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Saatlı rayonunda Olimpiya İdman Kompleksinin və Gənclər Mərkəzinin tikintisinə başlamaq məqsədi ilə Azərbaycan Respublikasının 2011-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Saatlı Rayon İcra Hakimiyyətinə ilkin olaraq 1(bir) milyon manat vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş vəsaitin maliyyələşdirilməsini müəyyən olunmuş qaydada təmin etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 12 may 2011-ci il.**

Abşeron və Ağcabədi rayonlarında Olimpiya idman komplekslərinin tikintisi ilə bağlı tədbirlər haqqında
AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
SƏRƏNCAMI

Azərbaycanda idmanın inkişafı ilə bağlı tədbirlərin davam etdirilməsinin vacibliyini və əhalinin müraciətlərini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Abşeron və Ağcabədi rayonlarında Olimpiya idman komplekslərinin tikintisinə başlamaq üçün Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə Azərbaycan Respublikasının 2011-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 2,0 (iki) milyon manat (hər kompleks üçün 1,0 milyon manat) vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş vəsaitin maliyyələşdirilməsini müəyyən olunmuş qaydada təmin etsin.

**İlham ƏLİYEV Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 27 may 2011-ci il**

**Tofiq Bəhramov adına Respublika Stadionunun maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı tədbirlər haqqında**
**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN**
**SƏRƏNCAMI**

Respublikamızın ən böyük idman arenası olan Tofiq Bəhramov adına Respublika Stadionu istifadəyə verildiyi 1951-ci ildən etibarən ölkəmizdə idmanın inkişafında xüsusi rol oynamışdır. Ötən illər ərzində Azərbaycanın idman

salnaməsinə adları qızıl hərflərlə yazılmış bir çox məşhur idmançımızın qazandığı yüksək nailiyyətlər stadionun tarixi ilə sıx bağlıdır.

FİFA və UEFA bayraqları altında təşkil edilən dünya və Avropa çempionatlarının seçmə oyunlarının keçirildiyi Respublika Stadionu indi artıq beynəlxalq əhəmiyyətli idman qurğusuna çevrilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, respublikamızda bədən tərbiyəsi və idmanın inkişafında, eləcə də beynəlxalq miqyaslı yarışların təşkilində mühüm yer tutan bu stadionun müasir standartlara uyğunlaşdırılmasını təmin etmək məqsədi ilə qərara alıram:

1. Tofiq Bəhramov adına Respublika Stadionunun əsaslı təmiri və yenidən qurulması üçün Azərbaycan Respublikasının 2011-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə 10,0 (on) milyon manat məbləğində vəsait ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş vəsaitin maliyyələşdirilməsini müəyyən olunmuş qaydada təmin etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 6 iyul 2011-ci il

## Bakı şəhərinin 2020-ci ilin Yay Olimpiya Oyunlarını keçirmək üçün namizədliyinin irəli sürülməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Olimpiya oyunları dünya dövlətlərinin diqqət mərkəzində dayanan ən mühüm və möhtəşəm idman tədbiridir. Olimpiya hərəkatında Azərbaycanın fəal iştirakı və idmançılarımızın Olimpiya oyunlarında qazandıqları nəticələr ölkəmizin idman sahəsindəki potensialını nümayiş etdirməklə yanaşı, onun ümumi inkişaf səviyyəsinin göstəricisinə çevrilir və eləcə də beynəlxalq nüfuzuna təsir edir.

Bədən tərbiyəsi və idman sahəsində həyata keçirilən dövlət siyasətinin daha da gücləndirilməsi, Olimpiya hərəkatının genişlənməsi və geniş coğrafi məkanda təbliğinin təşkil edilməsi məqsədi ilə Bakı şəhərinin 2020-ci ildə XXXII Yay Olimpiya Oyunlarını keçirmək üçün namizədliyi irəli sürülmüşdür. Belə mötəbər yarışların Azərbaycanın paytaxtında keçirilməsi dünya idman aləmində ölkənin nüfuzunun artmasına şərait yaradacaqdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Bakı şəhərinin 2020-ci ilin Yay Olimpiya Oyunlarını və Paralimpiya oyunlarını keçirmək üçün namizədliyinin irəli sürülməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi məqsədi ilə qərara alıram:

1. Bakı şəhərinin 2020-ci ilin Yay Olimpiya Oyunlarını və Paralimpiya oyunlarını keçirmək üçün namizədliyinin dəstəklənməsi üzrə aşağıdakı tərkibdə Təşkilat Komitəsi yaradılsın:

Təşkilat Komitəsinin sədri

Yaqub Eyyubov – Azərbaycan Respublikası Baş nazirinin birinci müavini

Təşkilat Komitəsinin üzvləri

Hacıbala Abutalıbov – Bakı Şəhər İcra Hakimiyyətinin başçısı
Elmar Məmmədyarov – Azərbaycan Respublikasının xarici işlər naziri
Azad Rəhimov – Azərbaycan Respublikasının gənclər və idman naziri
Kəmaləddin Heydərov – Azərbaycan Respublikasının fövqəladə hallar naziri
Şahin Mustafayev – Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri
Samir Şərifov – Azərbaycan Respublikasının maliyyə naziri
Əbülfəs Qarayev – Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri
Əli Abbasov – Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları naziri
Füzuli Ələkbərov – Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri
Kərəm Həsənov – Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin sədri
Rövnəq Abdullayev – Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti
İlqar Rəhimov – Azərbaycan Respublikası Paralimpiya Komitəsinin prezidenti
Ağacan Abiyev – Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin baş katibi
Çingiz Hüseynzadə – Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin vitse-prezidenti
Fərid Mansurov – Olimpiya çempionu
Namiq Abdullayev – Olimpiya çempionu
Zemfira Meftəhətdinova – Olimpiya çempionu
Elnur Məmmədli – Olimpiya çempionu

2. Təşkilat Komitəsi Bakı şəhərinin 2020-ci ilin XXXII Yay Olimpiya və XVI Paralimpiya oyunlarını təşkil etmək üçün namizəd şəhər kimi irəli sürülməsi ilə bağlı bütün məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Bakı Şəhər İcra Hakimiyyəti Azərbaycan Respublikasının Milli Olimpiya Komitəsi ilə birlikdə namizəd şəhərin Olimpiya Oyunlarının keçirilməsi ilə bağlı namizədliyinin qəbul edilməsi proseduruna uyğun olaraq Beynəlxalq Olimpiya Komitəsinə təqdim etmək üçün, Təşkilat Komitəsi ilə razılaşdırılmaqla, sifariş kitabını hazırlasın.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 8 sentyabr 2011-ci il.**

## Azərbaycanın "Rabitə" voleybol klubunun mükafatlandırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Rabitə" voleybol klubu Qətərin paytaxtı Doha şəhərində keçirilmiş qadın voleybol klubları arasında dünya çempionatının qalibi olmuşdur. Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikasının 2011-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan "Rabitə" voleybol klubuna 500 (beş yüz) min manat məbləğində vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 18 oktyabr 2011-ci il.**

## "Olimpiya dünyası" qəzetinin əməkdaşlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:
Azərbaycan idmanının təbliğindəki xidmətlərinə görə aşağıdakı şəxslər "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Hakıyeva Səadət Zifi qızı
Şirəliyev Aslan Bəybala oğlu

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 23 noyabr 2011-ci il.**

**Azərbaycan Respublikasında 2012-ci ilin "İdman ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikasında idmanın inkişafı ildən-ilə geniş vüsət alır. Müstəqilliyimizi əldə etdiyimiz vaxtdan bu günə qədər Azərbaycan idmançılarının müxtəlif səviyyəli beynəlxalq yarışlarda beş mindən artıq medala layiq görülməsi bunun əyani sübutudur, Olimpiya oyunlarında qazanılan 4 qızıl, 3 gümüş və 9 bürünc medal isə böyük tarixi nailiyyətdir.

İdman sahəsində gerçəkləşdirilən dövlət siyasəti, Olimpiya ideallarının təbliği, idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi, tikilmiş müasir Olimpiya kompleksləri və digər tədbirlər nəticəsində ölkəmiz mötəbər beynəlxalq idman yarışlarının keçirildiyi məkana çevrilmişdir. Bakı şəhərində bədii gimnastika, güləş və boks üzrə dünya çempionatlarının, habelə bu il futbol üzrə qadınlar arasında dünya çempionatının keçirilməsi, paytaxtımızın 2020-ci ilin Yay Olimpiya Oyunlarına ev sahibliyi üçün namizədliyinin irəli sürülməsi bunu bir daha təsdiq edir.

Ölkəmizdə idmanın inkişaf etdirilməsi, Olimpiya hərəkatının genişləndirilməsi, gənclərin müntəzəm şəkildə idmana cəlb olunması, əhalinin bütün təbəqələri arasında sağlam həyat tərzinin formalaşdırılması, yeni idman və Olimpiya komplekslərinin tikilməsi zərurəti, eləcə də idmançılarımızın London Olimpiadasında, dünya və Avropa çempionatlarında, rəsmi beynəlxalq yarışlarda yüksək göstəricilərinin təmin edilməsi məqsədi ilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq

QƏRARA ALIRAM:

1. 2012-ci il Azərbaycan Respublikasında "İdman ili" elan edilsin.

2. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə birlikdə 2012-ci ilin Azərbaycan Respublikasında "İdman ili" elan edilməsinə dair tədbirlər planını hazırlayıb bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 16 yanvar 2012-ci il**

“Azərbaycan Respublikasında 2012-ci ilin “İdman ili” elan edilməsi ilə bağlı “Tədbirlər Planı”nın təsdiq edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikasında 2012-ci ilin "İdman ili" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 16 yanvar tarixli 1965 nömrəli Sərəncamına uyğun olaraq qərara alıram:

**1.** "Azərbaycan Respublikasında 2012-ci ilin "İdman ili" elan edilməsi ilə bağlı Tədbirlər Planı" təsdiq edilsin.

**2.** Bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş "Tədbirlər Planı"nın icrasının təşkilində əlaqələndirici orqan Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi müəyyən edilsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**3.1.** "Azərbaycan Respublikasında 2012-ci ilin "İdman ili" elan edilməsi ilə bağlı Tədbirlər Planı"nda nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsini təmin etsin;

**3.2.** bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 29 mart 2012-ci il

## Azərbaycan Respublikasının Milli Olimpiya Komitəsinin yaradılmasının 20 illik yubileyi haqqında AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2012-ci ildə Azərbaycan Respublikasının Milli Olimpiya Komitəsinin yaradılmasının 20 ili tamam olur. Azərbaycan Respublikası dövlət müstəqilliyinin bərpasına nail olduqdan sonra öz idman potensialını tam nümayiş etdirmək imkanı qazanmışdır. Son üç olimpiadada idmançılarımızın 15 medala layiq görülməsi ölkəmizin idman şöhrətini əhəmiyyətli dərəcədə artırmışdır.Ötən dövr ərzində Milli Olimpiya Komitəsi işini yalnız Olimpiya Oyunlarında iştirakla məhdudlaşdırmamış, respublikada Olimpiya ideallarının bərqərar olması və idmanın hərtərəfli, ahəngdar inkişafı naminə səmərəli fəaliyyət göstərmişdir. Milli Olimpiya Komitəsi idmanın maddi-texniki bazasının genişləndirilməsi və müasirləşdirilməsi istiqamətində böyük uğurlar əldə etmişdir. 2000-ci ildən bəri ölkədə 34 olimpiya idman kompleksi və bir sıra ixtisaslaşmış idman qurğuları tikilib istifadəyə verilmiş, mövcud idman obyektləri yenidən qurulmuşdur.

İdmançılarımızın Olimpiya Oyunlarındakı nailiyyətləri, mötəbər idman yarışlarının keçirilməsində toplanmış təcrübə və beynəlxalq əlaqələrin yüksək səviyyədə qurulması Milli Olimpiya Komitəsini qitə olimpiya qurumlarının ön sıralarına çıxarmaqla nüfuzlu təşkilata çevirmiş, Azərbaycanı dünyanın idman

mərkəzlərindən biri olaraq tanıtmışdır. Respublikamızın paytaxtı Bakı şəhəri 2020-ci il Olimpiya Oyunlarının keçirilməsi üçün namizədliyini irəli sürmüş və iddiaçı şəhər kimi qeydə alınmışdır. Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin 20 illik yubileyinin ölkənin ictimai-mədəni həyatında əhəmiyyətini nəzərə alaraq və respublikamızda Olimpiya Hərəkatının daha da genişləndirilməsi məqsədi ilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

**1.** Azərbaycan Respublikasının Milli Olimpiya Komitəsinin yaradılmasının 20 illik yubileyi ölkəmizdə geniş qeyd olunsun.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın:

**2.1.** Azərbaycan Respublikasının Milli Olimpiya Komitəsi ilə birlikdə yubiley tədbirləri planı hazırlayıb həyata keçirsin;

**2.2.** Bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 17 aprel 2012-ci il.

## 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarının keçirilməsi üçün Bakı şəhərinin namizədliyinin irəli sürülməsi ilə bağlı Təşkilat Komitəsinin yaradılması haqqında AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİNİN SƏRƏNCAMI

İslam Həmrəyliyi Oyunları keçirilməyə başlandığı dövrdən etibarən dünya idman ictimaiyyətinin diqqətini özünə cəlb etmişdir. Həmin oyunlarda Azərbaycanın fəal iştirakı və idmançılarımızın uğurlu nəticələri bir daha respublikamızda idmanın yüksək inkişaf səviyyəsinə çatdığını göstərir. Bakı şəhərinin 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarını keçirmək üçün namizədliyi irəli sürülmüşdür. Belə mötəbər yarışın paytaxtımızda təşkili irimiqyaslı kompleks idman tədbirlərinin keçirilməsində respublikamızın malik olduğu potensial imkanları nümayiş etdirəcək, İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələr arasında idman əlaqələrini genişləndirəcək, Azərbaycanın beynəlxalq idman aləmində nüfuzunun bundan sonra da artmasını təmin edəcəkdir. 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarını təşkil etmək üçün Bakı şəhərinin namizədliyinin irəli sürülməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi məqsədilə, Azərbaycan Respublikası Konstitusiyasının109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1.Bakı şəhərinin 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarını keçirmək üçün namizədliyinin dəstəklənməsi üzrə aşağıdakı tərkibdə Təşkilat Komitəsi yaradılsın:

Təşkilat Komitəsinin sədri

Yaqub Eyyubov – Azərbaycan Respublikası Baş nazirinin birinci müavini

Təşkilat Komitəsinin üzvləri

Azad Rəhimov – Azərbaycan Respublikasının gənclər və idman naziri

Hacıbala Abutalıbov– Bakı Şəhər İcra Hakimiyyətinin başçısı

Elmar Məmmədyarov – Azərbaycan Respublikasının xarici işlər naziri

Kəmaləddin Heydərov – Azərbaycan Respublikasının fövqəladə hallar naziri

Şahin Mustafayev – Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri

Samir Şərifov – Azərbaycan Respublikasının maliyyə naziri

Əbülfəs Qarayev – Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri

Əli Abbasov – Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları naziri

Füzuli Ələkbərov – Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri

Rövnəq Abdullayev – Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti

Çingiz Hüseynzadə– Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin vitse-prezidenti

İlqar Rəhimov – Azərbaycan Respublikası Paralimpiya Komitəsinin prezidenti

Ağacan Abiyev – Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin baş katibi

Fərid Mansurov – Olimpiya çempionu

Namiq Abdullayev – Olimpiya çempionu

Zemfira Meftəhəddinova – Olimpiya çempionu

Elnur Məmmədli– Olimpiya çempionu

Nizami Paşayev – İslam Həmrəyliyi Oyunlarının çempionu

2. Təşkilat Komitəsi Bakı şəhərinin 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarını keçirmək üçün namizəd şəhər kimi irəli sürülməsi ilə bağlı bütün məsələləri həll etsin.

3. Təşkilat Komitəsi Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti və Azərbaycan Respublikasının Milli Olimpiya Komitəsi ilə birlikdə İslam Həmrəyliyi Oyunlarının keçirilməsi ilə bağlı Bakı şəhərinin namizədliyinin sifariş kitabını hazırlasın.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 4 iyun 2012-ci il.

**17 yaşına qədər olan qadınlar arasında futbol üzrə dünya çempionatının final mərhələsinin 2012-ci ildə Azərbaycan Respublikasında keçirilməsini təmin etmək haqqında**
**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

Azərbaycanda idmanın inkişafı daim dövlətin diqqət mərkəzindədir. Son illər ölkənin bir çox şəhərlərində olimpiya idman kompleksləri tikilib istifadəyə verilmiş, xüsusilə gənclər arasında idmanla məşğulluğun daha geniş yayılması üçün çoxsaylı tədbirlər həyata keçirilmişdir. Azərbaycanda mötəbər beynəlxalq səviyyəli idman yarışları, o cümlədən dünya və Avropa çempionatları keçirilir, həmin yarışlarda Azərbaycan idmançıları uğurla iştirak edirlər.

Ölkədə idmanın futbol növünə də xüsusi qayğı göstərilir. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 10 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında 2005-2015-ci illərdə futbolun inkişafına dair Dövlət Proqramı"nın icrası uğurla davam etdirilir. Həmin Dövlət Proqramında qadın futbolunun inkişafı və milli yığma komandaların dünya və Avropa çempionatlarında iştirakının təmin edilməsi məsələlərinə xüsusi önəm verilmişdir.

17 yaşına qədər olan qadınlar arasında futbol üzrə dünya çempionatının final mərhələsinin 2012-ci ildə Azərbaycan Respublikasında keçirilməsi ölkədə idmanın bu növünə marağın daha da artmasına səbəb olacaq və Azərbaycanın nüfuzlu beynəlxalq idman tədbirlərinə ev sahibliyi etmək təcrübəsini daha da zənginləşdirəcəkdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, 17 yaşına qədər olan qadınlar arasında futbol üzrə dünya çempionatının final mərhələsinin Azərbaycan Respublikasında keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti 17 yaşına qədər olan qadınlar arasında futbol üzrə dünya çempionatının final mərhələsinin təşkili və keçirilməsi ilə bağlı Azərbaycan Respublikasına gələcək əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi barədə təkliflərini 10 gün müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.
2. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti və Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, fəaliyyət istiqamətlərinə uyğun olaraq, çempionatın final mərhələsinin keçirilməsi ilə bağlı təhlükəsizliyin təmin olunması, mühafizənin təşkili, çempionat zamanı baş verə biləcək fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması üçün zəruri tədbirləri görsünlər.
3. Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Azərbaycan Respublikasının

Dövlət Miqrasiya Xidməti, fəaliyyət istiqamətlərinə uyğun olaraq, çempionatın final mərhələsində iştirak üçün Azərbaycan Respublikasına gələcək Beynəlxalq Futbol Federasiyaları Assosiasiyasının (FİFA) əməkdaşlarının, vəzifəli şəxslərinin, FİFA nümayəndə heyətinin üzvlərinin, FİFA konfederasiyaları və FİFA üzvü olan assosiasiyaların əməkdaşlarının və vəzifəli şəxslərinin ölkəyə gəlmə və ölkədən getmə zamanı dövlət sərhədindən keçməsi, gömrük nəzarətinin aparılması, habelə çempionat və çempionat tədbirləri ilə bağlı Azərbaycan Respublikasına gələcək əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin yaşayış yeri üzrə qeydiyyatı, Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazə verilməsi kimi məsələlərin həllində operativliyi təmin etsinlər.

4. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi çempionatın final mərhələsində təcili tibbi yardım, sanitariya və epidemioloji təhlükəsizlik işlərinin təşkili üçün zəruri tədbirlər görülməsini təmin etsin.

5. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi, Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi və Azərbaycan Respublikasının Müəllif Hüquqları üzrə Dövlət Agentliyi öz səlahiyyətləri çərçivəsində çempionatın final mərhələsinin keçirilməsi ilə bağlı FİFA-nın media, marketinq və digər kommersiya hüquqlarının qorunmasını təmin etsinlər.

6. Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və “Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyəti çempionatın final mərhələsinin keçirilməsi üçün tələb olunan telekommunikasiya və informasiya texnologiyaları xidmətlərinin yüksək səviyyədə təşkili üçün zəruri tədbirlər görsünlər.

7. Azərbaycan Respublikasının Vergilər Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondu çempionatın final mərhələsinin təşkili ilə əlaqədar ölkəyə gələn və çempionatın final mərhələsində iştirak edən şəxslərin müraciətlərinə operativ baxılmasını təmin etsinlər.

8. Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi və Azərbaycan Respublikasının Müəllif Hüquqları üzrə Dövlət Agentliyi çempionatla və çempionat tədbirləri ilə bağlı FİFA-nın və (və ya) üçüncü şəxslərin əqli mülkiyyət hüquqlarının qeydiyyatı, qeydiyyatına etiraz və ya qeydiyyatından imtina prosedurlarının operativ həyata keçirilməsini təmin etsinlər.

9. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 2 iyul 2012-ci il.

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının paytaxtı London şəhərində keçirilən XXX Yay Olimpiya Oyunlarında Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün ən yüksək nəticələrə görə mükafatların müəyyən edilməsi haqqında
AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının idmançılarını və onların məşqşçilərini Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının paytaxtı London şəhərində keçirilən XXX Yay Olimpiya Oyunlarında ən yüksək nəticələr göstərməyə həvəsləndirmək məqsədi ilə qərara alıram:

1. XXX Yay Olimpiya Oyunlarında ən yüksək nəticələrə görə Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün mükafatların məbləği aşağıdakı qaydada müəyyən edilsin:

1.1. Birinci yeri tutan hər bir idmançıya 400 min manat, onun məşqçisinə 200 min manat;

1.2. İkinci yeri tutan hər bir idmançıya 200 min manat, onun məşqçisinə 100 min manat;

1.3. Üçüncü yeri tutan hər bir idmançıya 100 min manat, onun məşqçisinə 50 min manat.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 3 iyul 2012-ci il

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının paytaxtı London şəhərində keçirilən XXX Yay Olimpiya Oyunlarında

Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün ən yüksək nəticələrə görə mükafatların müəyyən edilməsi haqqında

Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi Prezidentinin
Sərəncamı

Azərbaycan Respublikasının idmançılarını və onların məşqçilərini Böyük Britaniya və Şimali İrlandiya Krallığının paytaxtı London şəhərində keçirilən XXX Yay Olimpiya Oyunlarında ən yüksək nəticələr göstərməyə həvəsləndirmək məqsədi ilə qərara alıram:

XXX Yay Olimpiya Oyunlarında ən yüksək nəticələrə görə Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün mükafatların məbləği aşağıdakı qaydada müəyyən edilsin:

- birinci yeri tutan hər bir idmançıya 200 min manat, onun məşqçisinə 100 min manat;
- ikinci yeri tutan hər bir idmançıya 100 min manat, onun məşqçisinə isə 50 min manat;
- üçüncü yeri tutan hər bir idmançıya 50 min manat, onun məşqçisinə isə 25 min manat.

**İlham Əliyev**
**Azərbaycan Respublikası**
**Milli Olimpiya Komitəsinin Prezidenti**
Bakı şəhəri, 3 iyul 2012-ci il

**17 yaşına qədər olan qadınlar arasında futbol üzrə dünya çempionatının final mərhələsinin 2012-ci ildə Azərbaycan Respublikasında keçirilməsi ilə bağlı əlavə tədbirlər haqqında**
**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikasının 2012-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 17 yaşına qədər olan qadınlar arasında futbol üzrə dünya çempionatının final mərhələsinin 2012-ci ildə Azərbaycan Respublikasında keçirilməsini təmin etmək məqsədi ilə Azərbaycanın Futbol Federasiyaları Assosiasiyasına 3,0 (üç) milyon manat ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşmәni müəyyən olunmuş qaydada təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 11 iyul 2012-ci il.

## Bakı şəhərində Su İdmanı Sarayının tikintisi haqqında AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycanda su idmanı növlərinin inkişaf etdirilməsi, su idmanının müxtəlif növləri üzrə yerli və beynəlxalq səviyyəli yarışların təşkili məqsədi ilə qərara alıram:

1. Bakı şəhəri ərazisində müasir standartlara cavab verən Su İdmanı Sarayı tikilsin.

2. Su İdmanı Sarayının layihələndirilməsi və tikintisi üçün Azərbaycan Respublikasının 2012-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə ilkin olaraq 5,0 (beş) milyon manat ayrılsın.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 2-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 avqust 2012-ci il.

## Azərbaycan Milli Olimpiya komandası üzvlərinin təltif edilməsi haqqında AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

XXX London Yay Olimpiya Oyunlarında qazandıqları yüksək nailiyyətlərə, habelə Azərbaycan idmanının inkişafındakı xidmətlərinə görə aşağıda adları çəkilən Azərbaycan idmançıları və onların məşqçiləri təltif edilsinlər:

“Şöhrət” ordeni ilə
Əsgərov Toğrul Şəhriyar oğlu
Şərifov Şərif Naibqadjavoviç
Absaidov Saypulla Atavoviç
Şərifov Hicran İbrahim oğlu
Umudov Firdovsi Qəminalı oğlu
Zeynalov Elçin Hidayət oğlu

“Tərəqqi” medalı ilə
Aliomarov Maqomed Aliomaroviç
Bora Salih
Cəfərov Əjdər Xosrov oğlu
Əhmədov Emin Vidadi oğlu
Əlimzanov İlham Şamileviç
Xristov Valentin Snejev
Qaziyev Qacimurad Katiboviç
Məcidov Məhəmmədrəsul Yusup oğlu
Məmmədov Teymur Fizuli oğlu
Nəcəfov Mehman Ağa-Əli oğlu
Ratkeviç Yuliya Nikolayevna
Rəşidov Rəşad Yusif oğlu
Vassilev Zlatan Vanev

“Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə
Bayramov Rövşən Cənnət oğlu
Qazyumov Xetaq Ruslanoviç
Stadnik Mariya Vasilyevna

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 31 avqust 2012-ci il.

**Azərbaycan Milli Paralimpiya komandası üzvlərinin təltif edilməsi haqqında AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

XIV London Yay Paralimpiya Oyunlarında qazandıqları yüksək nailiyyətlərə, habelə Azərbaycan idmanının inkişafındakı xidmətlərinə görə aşağıda adları çəkilən Azərbaycan idmançıları və onların məşqçiləri təltif edilsinlər:

"Şöhrət" ordeni ilə
İbrahimov Ramin İbrahim oğlu
Panyutin Oleq Viktoroviç
Pronina Natali Aleksandrovna
Sultanova Afaq Vaqif qızı
Cəfərov Ağanağı Cəfər oğlu
Culfayev Alavərdi Abasoviç
İbrahimov İbrahim Eldar oğlu
Mustafayev Şahlar Gülməhəmməd oğlu
Sultanzadə Məhərrəm Elxan oğlu
Təhməzov Sergey Mehdiyeviç

"Tərəqqi" medalı ilə
Həsənov Hüseyn İsmayıl oğlu
Xəlfəyev Ziyad Əli oğlu
Muradov Elçin Tofiq oğlu
Setin Pavel Vitalyeviç
Süleymanov Afiq Məmməd oğlu
Zəkiyev İlham Əzizağa oğlu
"Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə
Osmanov Rza Fikrət oğlu
Rəcəbli Əhməddin İzət oğlu
Zayets Vladimir Vladimiroviç

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 14 sentyabr 2012-ci il.

**Ə.Ə. Məmmədova**

**"Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu"nun verilməsi haqqında AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram: Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin

yaradılmasının 20 illik yubileyi münasibətilə və idmanın inkişafında xidmətlərinə görə Ələkbər Əmir oğlu Məmmədova "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" verilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 5 noyabr 2012-ci il.

Z.T.Salahovaya
"Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu"nun verilməsi haqqında
AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin yaradılmasının 20 illik yubileyi münasibətilə və idmanın inkişafında xidmətlərinə görə Zərifə Teymur qızı Salahovaya "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" verilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 5 noyabr 2012-ci il.

## Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdlərinin verilməsi haqqında AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun uyğun olaraq qərara alıram:

1. Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin yaradılmasının 20 illik yubileyi münasibətilə və idmanın inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin:

Babanlı Tofiq Xanlar oğlu
Rəcəbli Əhməddin İzzət oğlu
Zeynalov Elçin Hidayət oğlu

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 5 noyabr 2012-ci il.

**Azərbaycanda idmanın inkişafında xidmətləri olan şəxslərin təltif edilməsi haqqında**
**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin yaradılmasının 20 illik yubileyi münasibətilə və idmanın inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə

Abiyev Ağacan Qulam oğlu
Mədətov İlham İsa oğlu

"Tərəqqi" medalı ilə

Əliyev Akif Arif oğlu
Əliyev Natiq Avil oğlu
Hümbətov Cəfər İslam oğlu
Mehdiyev Qabil Sabir oğlu
Nəcəfov Dilavər Ədalət oğlu
Spirina İrina Anatolyevna

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 5 noyabr 2012-ci il.

**Azərbaycanda idmanın inkişafında xidmətləri olan şəxslərə fəxri adların verilməsi haqqında**
**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin yaradılmasının 20 illik yubileyi münasibətilə, bədən tərbiyəsi və idmanın inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

"Əməkdar Bədən Tərbiyəsi və İdman Xadimi"

Əliyev Elxan İzzət oğlu
Əliyev Şahin Kamoş oğlu
Məmmədli Oruc Mehbalı oğlu
Məmmədli Süleyman Bağır oğlu
Məmmədov Rafiq Allahverdi oğlu
Rəhimov Nazir Həzrətqulu oğlu

"Əməkdar Jurnalist"

İsmayılov Eldar Xankişi oğlu

Məmmədov Bəxtiyar Miryusif oğlu

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 5 noyabr 2012-ci il.